**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**KƏMALƏ ƏMİR qızı İSLAMOVA**

# SƏMƏD VURĞUN adına AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRINDA TEATR-DEKORASİYA SƏNƏTİ

İxtisas: 6215.01 – Təsviri sənət

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2018**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nazim Bəykişiyev**
Xalq rəssamı, professor

**Rəsmi opponentlər:** **Arif Əziz**
Xalq rəssamı, professor

**Günay Qafarova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

Müdafiə 20 sentyabr 2018-ci il tarixində saat $11^{00}$-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1029, Bakı, Heydər Əliyev prospekti-26.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat 12 iyul 2018-ci ildə göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq üzrə**
**fəlsəfə doktoru, dosent** **X.Z.Əsgərova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Azərbaycanın sovetləşməsindən sonra sosial ehtiyac nəticəsində Bakıda fəaliyyətə başlayan və bu gün "Rus drama"sı kimi tanınan sənət məbədinin sələfi - Azad Dövlət Tənqid-Təbliğ Teatrı bir əsrə yaxın dövrdə özünəməxsus bədii-estetik ənənələrə malik mədəniyyət ocağı kimi tanınmışdır.

Bu teatrın səhnəsində qoyulan tamaşaların uğurunda, heç şübhəsiz ki, onların bədii tərtibatının da mühüm rolu olmuşdur. Əksər Bakı teatrlarının tərtibat tarixinə sənətşünaslıq elmimizdə münasibət bildirilsə də, "Rus drama"sı ilə bağlı bu məsələ tədqiqat mövzusu olmamışdır. Qənaətimizcə, bu gün teatr sənətinin ayrılmaz tərkib hissəsi sayılan bədii tərtibatın – dekorasiyaların, bədii-estetik tutumunun ayrıca tədqiqata cəlb olunması, rəssamların müxtəlif nəsillərinin "Rus drama"sında milli teatr-dekorasiya sənətinin inkişafına verdikləri töhfələrin elmi cəhətdən şərhi, həm də bu sahədə görülən işlərin dəyərləndirilməsi baxımından əhəmiyyətlidir.

Bu mənada, Azərbaycan teatrının 143 illik tarixində böyük xidmətləri olan Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında tamaşaya qoyulan əsərlərin bədii tərtibatının geniş tədqiqat obyektinə çevrilməsi mövzunun aktuallığını şərtləndirir. Aparılan tədqiqatlar və əldə olunmuş nəticələr bu teatrın zəngin təcrübəsini düzgün dəyərləndirməklə yanaşı, burada gerçəkləşən səhnəqrafiya sənətinin inkişafına da təkan verə bilər.

**Müvzunun işlənmə dərəcəsi.** 1873-cü ildə təməli qoyulmuş Azərbaycan professional teatrının bu günə kimi davam edən təşəkkülü prosesinə kifayət qədər elmi-tədqiqat əsərləri həsr olunmuşdur. Bunların arasında teatrın inkişafını izləyən monoqrafiyalar, teatrın problemlərindən bəhs edən elmi-nəzəri əsərlər, ayrı-ayrı aktyorların, rejissorların, rəssamların həyat və yaradıcılığından bəhs edən kitablar, müxtəlif miqyaslı nəşrlərdə yer almış elmi-publisistik məqalələr vardır. C.Cəfərovun [1], İ.Rəhimlinin [2], M.Əlizadənin [3] monoqrafiyalarını,

---

[1] Cəfərov C. Azərbaycan teatrı (1873-1973) – Bakı: Azərnəşr, 1974, s.314

[2] Rəhimli İ. Azərbaycan teatr tarixi – Bakı: Çaşıoğlu, 2005, s.864

[3] Əlizadə M. Teatr: seyr və sehr – Bakı: Elm, 1998, s.252

D.Səfərəliyevanı[4], S.Şükürovanın[5], N.Mirzəyevanın[6] dissertasiyalarını və digər çoxsaylı əsərləri buna nümunə göstərmək olar.

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının yaranmasından sonra zaman-zaman onun fəaliyyətini özündə əks etdirən kitablar da nəşr olunmuşdur. Əsasən, rus dilində işıq üzü görmüş bu kitabların sırasında "Бакинский Рабочий Театр" (1926), "Бакинский Рабочий Театр – сезон 1928-29 года" (1928), "Двадцать лет работы театра. 1920-1940" (1941), D.Qlikşteyn və R.Rayevanın "Азербайджанский Государственный Русский Драматический Театр имени Самеда Вургуна" (1961), V.Boquslavskinin "Русский Драматический Театр имени Самеда Вургуна. 1920-1970" (1971) və "За сильных и богатых духом" (1981), Marat İbrahimovun tərtibçisi olduğu "Нам восемь десять" (2000) kitablarının adlarını qeyd edə bilərik.

Çox təəssüf ki, bütün bu əsərlərdə S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında səhnəyə qoyulan əsərlərin dekorasiyaları haqqında çox az söz açılmışdır. Müəlliflər səhnə dekorasiyalarının və geyim eskizlərinin yaradıcısı olan rəssamların işini ümumi şəkildə dəyərləndirmiş, bir qayda olaraq konkret tamaşaların, rəssamlarının adını çəkməklə kifayətlənmişlər. Hazırlanan tərtibatın dram əsərinin səhnə həllinə təsiri isə şərh olunmamış, əsl qiymətini almamışdır. Bütün bunlar bir daha S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında səhnəyə qoyulan tamaşaların estetik tutumuna təsir göstərmiş dekorasiyaların bədii-estetik tutumunun elmi dəyərləndirilməsini zəruri edir.

**Mövzunun məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədini respublikamızın aparıcı sənət məbədlərindən sayılan S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrına aid teatr-dekorasiya sənəti nümunələrinin təşəkkül tarixini bütünlüklə izləmək, onların Azərbaycan təsviri sənətindəki yerini müəyyənləşdirmək təşkil edir. Respublikada yeganə olan bu rusdilli teatr müəssisəsinin səhnəsində tamaşaya qoyulan tamaşaların Azərbaycan dramaturqlarından daha çox dünya və rus-sovet müəlliflərin əsərlərinin olması onlara bədii münasibətin fərqli tutumunu

---

[4] Səfərəliyeva D.A. Sovet Azərbaycanının teatr-dekorasiya sənəti – Bakı: Azərnəşr, 1968, s.120.

[5] Şükürova S.İ. Azərbaycan sovet dövrü teatr-dekorasiya sənəti (1946-1985-ci illər). Nam. diss. avtoreferatı – Tbilisi, 1990.

[6] Mirzəyeva N.Ə. XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycanda musiqili tamaşaların bədii tərtibatı. Nam. diss. avtoref. – Bakı, 2011.

şərtləndirdiyindən, dissertasiyanın məqsədinə bu bədii-estetik xüsusiyyətin həllinin dəyərləndirilməsi də daxil edilmişdir.

Göstərilən məqsədə müvafiq olaraq tədqiqat qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

-S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında teatr-dekorasiya sənətinin təşəkkülünün, formalaşmasının və təkamülünün əsas mərhələlərini müəyyənləşdirmək;

-Azərbaycan Dövlət Rus Dram Teatrının bədii tərtibat-dekorasiya sənətinin əsas inkişaf təmayüllərinin bədii-estetik yükünü şərh etmək;

-Azərbaycan Dövlət Rus Dram Teatrında 1920–2010-cu illərdə səhnəyə qoyulan teatr tamaşalarının bədii tərtibatında təzahür edən yaradıcılıq axtarışlarını və bədii xüsusiyyətləri müəyyənləşdirmək;

-Teatrın aparıcı rəssamlarının yaradıcılığını və ayrı-ayrı tamaşaların tərtibatını vermiş görkəmli Azərbaycan rəngkarlarının yaradıcılıq nümunələrinin estetik dəyərini şərh etmək;

-Müxtəlif dövrlərdə teatrla əməkdaşlıq edən rəssamların yaradıcılığında nəzərə çarpan yeni və müasir təmayülləri dəyərləndirmək;

-Teatrın bir əsrə yaxın dövrü əhatə edən yaradıcılıq fəaliyyəti qarşılığında onun Azərbaycan teatr sənətindəki yerini müəyyənləşdirmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının fəaliyyəti, onun səhnəsində qoyulan tamaşaların milli teatr məkanına bəxş etdiyi özünəməxsus bədii-estetik xüsusiyətlərin şərhi çıxış edir.

Dissertasiyanın predmetini isə bu teatrın səhnəsində müxtəlif illərdə səhnələşdirilən dram əsərləri və bu əsərlərin bədii tərtibatını gerçəkləşdirən teatr rəssamlarının fəaliyyəti, onların ərsəyə gətirdikləri dekorasiya və geyim eskizləri təşkil edir.

Tədqiqatın başlıca məqsədi ilə müəyyən olunan predmetini, həm də S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında müşahidə olunan milli teatr-dekorasiya sənətinin inkişaf tendensiyasını, onun mənşəyini, müxtəlif təzahürlərini, professionallığının yüksəlməsini əks etdirən evolyusiyasının tədqiqi təşkil edir.

**Tədqiqatın metodoloji əsasları**. Tədqiqatın metodologiyası cəmiyyətimizin mədəni məkanında müxtəlif dövrlərdə baş verən təzadlı hadisələri izləməklə yanaşı, onun yenilənməyə meylli olan estetik görüşlərini və dünyəvi dəyərlərlə zənginləşən milli ənənələrini öyrənməyə imkan verən ictimai-siyasi və mədəni həyatın tarixi müqayisəli təhlili prinsipinə əsaslanır.

İndiyə qədər S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının bədii tərtibat-dekorasiya sənətinin xarakteristikasına, onun tarixi inkişafına, eləcə də teatrda çalışan rəssamların yaradıcılığının sənətşünaslıq təhlilinə cəlb olunmuş xüsusi tədqiqatın olmadığını nəzərə alaraq, bu geniş və mürəkkəb material tarixi-nəzəri sənətşünaslıq aspektindən nəzərdən keçirilib, onun tədqiqinin və tarixi ümumiləşdirilməsinin əsas istiqamətləri müəyyən olunub.

**Tədqiqatın sərhədləri.** Tədqiqatın xronoloji sərhədləri S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının yaradılmasından iyirmi birinci yüzilliyin ilk on ilinə qədərki, az qala, bir əsrə çatan dövrü əhatə edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında bədii tərtibat-dekorasiya sənətinin inkişaf problemləri Azərbaycan teatrının ümumi inkişafı kontekstində öyrənilmişdir.

-Azərbaycanın sovetləşməsindən dərhal sonra sosial tələbdən doğan teatrda XXI əsrə kimi davam edən teatr-dekorasiya sənətinin təşəkkülü kompleks halda tədqiq olunmuşdur.

-Tədqiqata daxil edilmiş səhnə əsərlərinin bədii-dekorasiya tərtibatının elmi-sənətşünaslıq təhlili verilmişdir.

-Müasir, xüsusilə də müstəqillik dövründə S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı rəssamlarının yaradıcılığında nəzərə çarpan yeni təmayüllər göstərilmişdir.

-Səhnəyə qoyulan teatr tamaşalarının yaradıcılıq inkişafının bədii xüsusiyyətləri müəyyən edilmişdir.

-Dissertasiyada Azərbaycanın müxtəlif dövrlərdə bu sahədə çalışan aparıcı rəngkarları ilə yanaşı, zaman-zaman Bakıya dəvət olunmuş rəssamlar tərəfindən işlənilən teatr quruluşlarının ətraflı təhlili də verilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Təqdim olunan dissertasiya işinin praktik əhəmiyyəti S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının teatr-dekorasiya sənətinin öyrənilməsinin genişləndirilmiş spektr ilə səciyyələnir ki, bu da ölkənin digər aparıcı teatrlarının teatr-dekorasiya sənətinin öyrənilməsinə və tədqiqinə təkan verə bilər.

Tədqiqat işində təhlilini tapmış Azərbaycan teatr rəssamlarının teatr-dekorasiya yaradıcılığının bədii xüsusiyyətlərinin, bu sənətkarların iş təcrübəsinin gənc teatr rəssamları, dekorasiya ustaları, teatr geyim rəssamları tərəfindən əsas götürülərək, onların yaradıcılığında istifadə edilməsi mümkündür.

Dissertasiyanın nəticələri tədqiqatçı-sənətşünaslar tərəfindən bu sahədə aparılan gələcək tədqiqatlar üçün də etibarlı elmi qaynaq ola bilər və bu baxımdan da praktiki dəyərə malikdir.

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının tədqiqata cəlb olunmuş teatr-dekorasiya sənəti nümunələri respublikanın digər aparıcı teatrlarına həsr edilmiş analoji tədqiqatlardan sonra bu məkanda mövcud olan boşluğu aradan götürməklə, müəyyən tarazlıq yarada bilər. Belə ki, dissertasiya materiallarında Azərbaycan və digər millətlərdən olan teatr rəssamlarının çoxsaylı müəllif işlərinin sənətşünas təhlili verilib. Bu da uzun müddət müxtəlif arxivlərdə və saxlanclarda olan nümunələr barədə gələcək tədqiqatçılara bələdçilik edə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları müxtəlif səviyyəli elmi konfranslarda dinlənilmiş, eləcə də müəllifin çap olunmuş bir sıra məqalələrində əksini tapmışdır. Tədqiqat işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında müzakirə olunmuşdur.

**Tədqiqatın strukturu və həcmi.** Dissertasiya giriş, iki fəsil, dörd yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və illüstrativ albomdan ibarətdir. Dissertasiyanın əsas hissəsi 135 səhifəlik kompüter yığımında əks etdirilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, məqsəd və vəzifələri, işlənmə dərəcəsi, elmi yeniliyi, praktik əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqqında məlumat verilir.

Dissertasiyanın **"S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında səhnə tərtibatı ənənələrinin yaranması"** adlanan **birinci fəslinin** ilk paraqrafında Bakıda belə bir teatrın yaranması zərurətindən bəhs edilir, teatrın tərtibat estetikası ümumazərbaycan səhnəqrafiyasının yaranması kontekstində nəzərdən keçirilir. Qeyd edilir ki, bu teatrın qarşıya qoyduğu vəzifələri yüksək səviyyədə yerinə yetirməsi istəyi ilk illərdən yaradıcı prosesə, özünəməxsus dəst-xəttə və müasir baxışa malik olan rəssamların cəlb olunmasını tələb edirdi. "Rus draması" səhnəsinin yeni miqyasda – monumental tutumda tamaşaçılara təqdimatı zamanın tələbi idi. Bu teatrın səhnəsində konstruksiyalardan istifadəyə geniş yer verən tərtibatçı rəssamlar, təqdim olunan şərti-dekorativ bədii həll ilə tamaşaçı düşüncələrini pərvazlandırmağa çalışırdılar. Əgər əvvəlki teatrın

müxtəlif mizanları aktyora ləng hərəkət imkanı verirdisə, yeniləşən, bir qədər də inqilabi ruha bələnmiş yeni teatrda səhnəni təşkil edən hər bir detal və atributda aktyorları dinamikaya və fəallığa səsləyən bir görünmə gücü vardı.

1923-cü ildən sonra Bakı Azad Tənqid-Təbliğ Teatrı adını Bakı İşçi teatrına dəyişən bu teatrın tamaşalarının bədii həllində inqilabi konstruktivizmə üstünlük verilməsi teatr kollektivinin qarşısına qoyulan bədii vəzifələrin icrasının obrazlı görüntüsü idi. Yeni teatrın səhnəqrafiyasında bir vaxtlar səhnədə obrazların yaşadıqları qayğısızlıqla dolu həyatın təqdimatı əvəzinə, rejissorlar həm dramaturji materialla, həm də aktyorların davranışlarına xüsusi ab-hava bəxş edən müasir ruhlu bədii tərtibatla tamaşaçını mənəvi-psixoloji dəyərlər aşılayan səhnə ilə üz-üzə, göz-gözə qoymağı bacardılar. Bu məsələdə heç şübhəsiz Bakıya Rusiyanın iri şəhərlərindən dəvət olunmuş rəssamların (Vyaçeslav İvanov, İvan Şlepyanov,Sergey Yefimenko və b.) xidmətləri az deyildi.

Bu mənada, "Rus draması" Bakıdakı əksər teatrlardan gənc olsa da, tərtibat məsələlərində yerli yox, SSRİ-nin mərkəzi şəhərlərindəki teatrlarda baş verən bədii proseslərdən faydalanmaqda idi. Bu səbəbdən onun tamaşalarında yeni teatr formalarına çox rast gəlinirdi.

Teatrın yeni binaya köçməsi səhnənin yeniləşməsi ilə də yadda qaldı. Rəssam Vyaçeslav İvanovun eskizi əsasında yenidən qurulan səhnə bütünlükdə beş hissəyə bölünmüşdü. Belə bir səhnə tamaşada yaşananların daha dinamik təqdimatlarının konstruktiv quruluşda ifadəsinə şərait yaradırdı.

Teatrda baş verənlər Bakı şəraiti üçün hər nə qədər yeni, həmçinin gözlənilməz olsa da, bütünlükdə səhnəyə qoyulan əsərlərin mövcud ideologiyanın tələblərinə cavab verməməsi, məna-məzmun yozumunda və daha çox bədii tətibatda, həm də burjuaziya teatrının təqlidçisi olan "solçu"lara meyllənməsi ilə rəsmi qurumlar üçün arzuolunmaz sayılırdı. Buna baxmayaraq mövcudluğunun ilk beş ilinin sonunda Bakı teatrının şöhrəti Azərbaycanın sərhədlərini aşmışdı.

Ötən əsrin 20-ci illərinin sonunda teatrın simasını müəyyənləşdirənlər sırasına rejissor Vladimir Fyodorov və rəssam İvan Şlepyanovun qatılması Bakı İşçi Teatrının estetikasında sonralar davamlı şəkil alacaq "şərti realizmin" aparıcı bədii vasitəyə çevrilməsini şərtləndirdi. Bununla belə bütövlükdə teatrın tamaşalarının bədii tutumunda tamaşaların təntənəlilik ruhundan qaynaqlanan aktual-inqilabi keyfiyyətin özünə yer etməsi həm də zamanın tələbindən irəli gəlirdi. Bu

da bədii tərtibatda tətbiq olunan formal və naturalistik detalların daha realist ifadə vasitələri ilə əvəzlənməsinə gətirib çıxardı[7].

30-cu illərin "Rus dramasi"nda realist sənət uğrunda gedən mübarizənin təbliğat ruhuna bələnməsində tamaşaların səhnəqrafiyasını həyata keçirən Sergey Yefimenko və Nikolay Ovçinnikov kimi rəssamların böyük yaradıcı xidmətləri olmuşdu. Bu dövrdə tamaşaya qoyulan pyeslərin səhnəqrafiya həllində üslub dəyişkənliyinə çox rast gəlmək olardı. Bu dəyişikliyi yaradanlar Nikolay Ovçinnikov, Sergey Yefimenko, Rüstəm Mustafayev, İzzət Seyidov, Nüsrət Fətullayev və b. bu kimi rəssamlar idi.

Ümumən teatrın 20-30-cu illər səhnəqrafiyasında SSRİ-nin mərkəzi teatrlarında müşahidə olan tərtibat estetikasından istifadə, müşahidə axtarışlarına müvəqqəti istiqamətverici amil kimi müsbət dəyərləndirilə bilər.

Müharibədən sonra tamaşaya qoyulan vətənpərvər ruhlu əsərlərin bədii həllində müxtəlif formalarla ifadə olunan estetikasında da realizm ənənələrinin yeni və fəqli çalarlarla zənginləşdirilməsini müşahidə etmək mümkündür.

Qələbə ilə yekunlaşan müharibədən sonra respublikanın bütün teatrları kimi "Rus dramasi"nda da vətənpərvərlik ruhunda yazılan əsərlərin əsas yer tutması bu tamaşaların bədii tərtibatı ilə bağlı yeni tələblər müəyyənləşdirirdi. Tərtibat ruh yüksəkliyini ifadə etməli idi.

50-ci illərdə teatr dramaturgiyada geniş yer alan mənəvi-etik problemlərə, ailə-məişət və məhəbbət mövzularına daha çox müraciət edirdi. Bu da qoyulan məsələlərin inandırıcı və təsirli səhnəqrafiya həllini aktuallaşdırırdı. Həmin dövrdə teatrda S.Vurğunun "Vaqif" pyesinin tamaşaya qoyulması onun tərtibatına monumentallıq və lirizm bəxş etmişdi. Bu tamaşanın bədii tərtibatına cəlb olunmuş Nüsrət Fətullayev və Bədurə Əfqanlının çəkdikləri dekorasiyalar və geyim eskizləri pyesin daşıdığı realizmə bələnmiş romantikanı duyğulandırıcı tutumda çatdırmağa imkan yaratmışdı. XX əsrin ikinci yarısında bu sahədə xüsusi təhsil görmüş rəssamların fəaliyyəti teatr-dekorasiya sənətinin müasir tələblərə uyğun inkişafında böyük rol oynadı.

---

[7] Миклашевская Н. Становление и развитие искусства социалистического Реализма в Советском Азербайджане – Баку: Азернешр, 1974, с.178.

1960-1980-ci illərdə Azərbaycan incəsənətinə xas olan yüksəlişin bu teatrı da əhatə etməsi birmənalıdır. Həmin vaxtlarda səhnəqrafiyada yaşanan üslub yenilikləri tamaşaya qoyulan dramaturji materialların obrazlı bədii tutumda təqdimatı ilə yadda qalır. Səhnədə göstərilənlərin inandırıcılığının əldə olunması, hadisələrin tədrici təqdimatı, dekorasiyalarda rəngkarlıq duyumunun gücləndirilməsinə meyl teatr estetikasının əsasını təşkil edir. Görünənləri çox qısaca dəyərləndirməli olsaq, onda tamaşaçıların birbaşa gözü qarşısında rəssam fantaziyası ilə yaradılmış bədii kamilliyin dəyərinin yüksəlməsinin sərgiləndiyini deyə bilərik.

Heç şübhəsiz, teatr-dekorasiya sənətinin sadə-primitiv formalardan daha mürəkkəb forma-biçimli səhnəqrafiya nümunələri ilə əvəzlənməsi səhnəyə qoyulan əsərlərin bədii-estetik məziyyətlərinin artmasına səbəb oldu. Bu da teatr sənətinin insanların mənəvi ehtiyaclarının yüksək səviyyədə ödənilməsində rolunun daha da artmasını şərtləndirdi.

**Birinci fəslin ikinci yarımfəsli "S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında dekorasiyaların yaradılması tarixi"** nə həsr edilmişdir. Burada 1920-1930-cu illər arasındakı müddət təhlilə cəlb olunmuşdur. Bolşeviklərin Bakıya gəlişinin ilk vaxtlarında – 1920-ci ildə indiki S.Vurğun adına Dövlət Rus Dram Teatrının sələfi olan Dövlət Azad Tənqid-Təbliğ Teatrı (Государственный Свободный Сатир-Агит. Театр) fəaliyyətə başladı. Artıq həmin ilin sonunda, yəni 1920-ci ilin 20 dekabrında ilk tamaşa göstərildi. Elə birinci çıxışdan sonra məlum oldu ki, Tənqid-Təbliğ Teatrının tamaşası məzmun etibarilə yeni inqilabi tamaşaçının baxışları ilə həmahəngdir.

Tənqid-Təbliğ Teatrında tamaşaya qoyulan əsərlərdə inqilabi materialdan ibarət olan birpərdəli pyeslər, çastuşkalar, şərhlər, miniatür və s. çox uğurla montaj edilirdi. Aktyor ifasını səciyyələndirən inqilabi-qəhrəmanlıq patetikası və dekorativ-bədii tərtibatın əlvanlığı birlikdə seyrçiyə güclü təbliği təsir göstərə biləcək, onda duyulası ruh yüksəkliyi yaradacaq tamaşanın yaranmasına səbəb olurdu.[8]

1920-1921-ci illər teatr mövsümündə konkret mövzuyla bağlı rəssam tərtibatından çox, səhnəyə müəyyən ovqat bəxş edən pərdələrdən və rəmzi detallardan istifadə olunurdu. Azərbaycan qadınlarının ilk qurultayı (1921, fevral) ilə əlaqədar təşkil olunmuş kiçik səhnəciklərdən ibarət tamaşanın tərtibatında Bakıda fəaliyyət göstərən gəlmə

[8] Двадцать лет работы театра (1920-1940) – Баку: Издание Азербайджанского Государственного Краснознаменного Театра Русской Драмы, 1941, с.58.

rəssamlardan Boris Voronov, Yuri Samorodov və Pavel Uzunov da iştirak etmişdilər.

Tədqiqatçılar rəssamların həmin illərdəki fəaliyyətlərini belə dəyərləndirirlər: "Bu teatrlarda rəssamların da üzərinə böyük məsuliyyət düşmüşdü. Onlar sadə, ancaq parlaq dekorasiyalar, o cümlədən səhnənin arxasındakı divardan asılan bədii lövhələri, pərdələri hazırlayar, foyenin divarlarını süjetli kompozisiyalarla bəzəyər, bununla da haradasa tamaşaçılara göstəriləcək tamaşanın məzmununu çatdırmağa çalışardılar. Tənqid-Təbliğ Teatrının tamaşalarının təbliğat yönümlü və aktual olması onları geniş tamaşaçı kütləsi üçün yaxın və başadüşülən etmişdi"[9].

1924-1925-ci il mövsümündə tamaşaya qoyulan əsərlərin bədii tərtibatında artıq maraqlı forma-biçim və rəng həllini müşahidə etmək mümkün idi. Bu mənada teatrın rəssamı Vyaçeslav İvanovun tərtibat verdiyi "Qızışdırıcılar" (müəllifi A.Lunaçarski), "Kazaklar" (müəllifi B.Romaşov), "Fiqaronun evliliyi" (müəllifi P.Bomarşe) və s. tamaşaların adını çəkmək olar. Yeniləşmənin müsbət nəticələrini artıq teatrın üçüncü, yəni,1925-1926-cı illər mövsümündə duymaq olardı.

Kollektivin yenicə formalaşmağa başlayan bioqrafiyasına müraciət etsək, onda haqqında söz açdığımız dövrdə teatrın bir dəstə "meyerxoldçu" ilə zənginləşdiyini qeyd etməliyik. Bunlar arasında rejissor V.Fyodorov və A.İvanov, aktyor M.Jarov, F.Ranevskaya, S.Mayorov və V.Kuznetsovla yanaşı, iki rəssam da vardı. Bunlar Sergey Yefimenko və İvan Şlepyanov idi. 1926-1927-ci illər mövsümünün, demək olar ki, İvan Şlepyanova həvalə olunması ilk növbədə onun paytaxt teatrlarında səhnəqrafiya sahəsində zəngin praktiki təcrübə toplaması ilə bağlı idi.

1926-1927-ci illərdə Bakı Fəhlə Teatrında S.Mayorov, D.Qutman, V.Fyodorov və A.İvanov kimi gənc rejissorların fəaliyyət göstərməsi arzulanan bədii tərtibatın gerçəkləşdirilməsinə imkan yaradırdı. Bir qədər əvvəl səhnədə "yenilik" kimi qəbul olunan və çox vaxt yerdəyişmələri birmənalı qarşılanmayan həndəsi konstruksiyalar tamaşaçı diqqətini dağıdan elementlər kimi səhnəqrafiyanın yük daşıyıcılığından təcrid olundu. Bundan sonra teatrın tamaşalarındakı mövcud səhnəqrafiyada yer almış "forma oyunları"nın təsir gücünü aktyor sözü və hərəkətləri ilə tamaşa salonuna çatdırmağa başladı. Bunu təmin edən yaradıcı adamlar

---

[9] Миклашевская Н. Становление и развитие искусства социалистического Реализма в Советском Азербайджане – Баку: Азернешр, 1974, с.87

arasında təcrübəli rəssamlarla yanaşı gənc Rüstəm Mustafayev (1910-1940) də vardı[10].

1934-cü ildə Tiflisdə Zaqafqaziya teatr olimpiadasının keçirilməsi ilə əlaqədar Azərbaycan Dövlət Teatr Muzeyinin orada respublika teatrlarında hazırlanan maket və dekorasiya eskizlərini nümayiş etdirməsi bu sahədəki vəziyyəti əyani görməyə imkan verdi. Burada fəaliyyəti Bakı Fəhlə Teatrı ilə bağlı olan Rüstəm Mustafayev, Sergey Yefimenko, Nikolay Ovçinnikov və Vyaçeslav İvanovun hazırladığı dekorasiya və geyim eskizlərinin timsalında da, bu bədii evolyusiyanı görmək mümkün idi. Teatrla əməkdaşlıq edən digər rəssamların – Fyodor Qusak, İqor Arlaçyev və Vladimir İvanovun da müxtəlif məzmunlu teatr tamaşalarına bədii münasibətində mövcud ictimai-siyasi mühitin tələb etdiyi ideoloji konsepsiya ilə səsləşən yanaşma mövcud olsa da, bütünlükdə tamaşalara cəlbedicilik və düşündürücülük bəxş edən müasirliyə bələnmiş geniş bədii ümumiləşdirmələr hakim idi.

Tədqiqat işinin ikinci fəsli **S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının bədii tərtibatında ənənələrin formalaşması** adlanır. Fəslin ilk paraqrafı 1940-1980-ci illər bədii tərtibatının əsas inkişaf istiqamətlərinə həsr edilmişdir. 1941-1945-ci illərdə davam edən Böyük Vətən Müharibəsi bu dövrün ilk illərində Rus Dram Teatrının həm repertuarına, həm səhnə tərtibatına təsir göstərən əsas amillərdəndir. Teatrın repertuarında zamanın ruhuna müvafiq dəyişikliklər aparılmışdı. Kollektivin artıq 1941-1942-ci illər mövsümündə "Sərkərdə Suvorov" (müəllifi İ.Baxteryev və A.Razumovski), "Cəbhə" (Skosıryevlər ailəsi) (müəllifi V.Solovyev) və "Partizanlar Ukrayna çöllərində" (müəllifi A.Korneyçuk), sonrakı illərdə isə digər vətənpərvərlik ruhlu əsərləri səhnələşdirməsi bilavasitə arxa cəbhədə çalışan insanların qələbəyə inamını gücləndirməyə xidmət edirdi.

"Sərkərdə Suvorov" və "Partizanlar Ukrayna çöllərində" tamaşalarına tərtibat verən S.Yefimenko yığcam bədii vasitələrlə uzaq-yaxın, hərbi-döyüş hadisələrinin təsirli və ruhlandırıcı olmasına çalışmaqla, bütünlükdə əsərlərin məna-məzmun daşıyıcılığından qaynaqlanan vətənpərvərlik hisslərini qabartmağa nail olmuşdu.

Müharibənin qələbə ilə sonuclanması bütün ölkədə, o cümlədən də Azərbaycanda yaşayan əhalidə böyük ruh yüksəkliyi yaratdı. Aparılan

[10] Миклашевская Н. Рустам Мустафаев – Баку: Азернешр, 1959, с.9

quruculuq və yenidənqurma işlərinin incəsənətin önəmli sahələrindən sayılan teatrı da əhatə etməsi teatrın fəaliyyətindən də yan keçmədi və bu, kollektivin repertuarında da qabarıq duyuldu. Müharibədən sonrakı bir-neçə ildə tanınmış yerli və xarici müəlliflərin əsərlərinin səhnə həllini tapması da bunun göstəricisi idi. Bu, həm də müharibədən dərhal sonra kollektivin 25 illik yubileyini qeyd etməsi ilə bağlı idi. Odur ki, zamanına görə aktual sayılan N.Poqodinin "Kreml saatı" və vətənpərvərlik ideyasına bələnmiş S.Vurğunun "Vaqif" pyeslərinin səhnəyə qoyulmasını məqsədli və məntiqli seçim hesab etmək olar. "Kreml saatı"nın (rejissoru A.Qripiç) tərtibatını Sergey Yefimenko, "Vaqif" əsərinin (rejissoru İ.Hidayətzadə) dekorasiyalarını (hər ikisi 1945-1946-cı illər mövsümü) isə Fyodor Qusak işləmişdi.

Bizim dövrə "Vaqif" pyesinin tərtibatı ilə bağlı bir-neçə bədii-foto material gəlib çatmışdır. C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində saxlanan bu eksponatların ikisi sulu boya ilə çəkilmiş geyim eskizləridir. Onların birində pyesin baş qəhrəmanı Vaqif təsvir olunmuşdur. Zamanında Qarabağ xanının vəziri vəzifəsini daşıyan şairin ikonoqrafik əlamətlərinə rəğmən rəssamın çəkdiyi eskiz elə ilk baxışdan tanınandır.

Digər geyim eskizi isə Qacarın əsgəri üçün nəzərdə tutulmuşdur. Sulu boya ilə çəkilmiş eskizdə rəssam bənövşəyi, qırmızı və göy rənglərin vəhdətini əsgər geyimini səciyyələndirə biləcək bir tutumda cəmləşdirmişdir. Ona görə də bu rənglərə bələnmiş geyimdə əli qılınclı əsgər cəlbedici və inamlı görünür.

Rəssamın pyesin bədii tərtibatına verdiyi bədii həllin necəliyini tamaşadan çəkilmiş iki fotoşəkildə kifayət qədər yaxşı əks etdirir. Onlardan birində Vaqifin evinin interyeri təsvir olunub. Şairi və onun xanımı Xuramanı əhatələyən otağın görüntüsü ilk növbədə Fyodor Qusakın Azərbaycan etnoqrafiyasına və məişətinə yaxşı bələdliyini sərgiləyir. Belə ki, otağın tərtibatı həm milli, həm də sarayın vəzirinə layiq tutumdadır. Otağı təşkil edən müxtəlif əşyaların milli naxışları, şəbəkəli arakəsmənin ecazkar görkəmi, pəncərələri örtən butalı pərdələrin zərifliyi ilk növbədə quruluşçu rəssamın incə zövqündən xəbər verir. Belə bir məkanda baş verən hadisələrin məzmunundan asılı olmayaraq tamaşaçıda xoş təəssürat oyadacağı da birmənalıdır.

Rəssamın digər dekorasiyası isə açıq havada baş verənlərin inandırıcılığına uyğun həll olunub. Əsrarəngiz Şuşa təbiətini dekorasiyanın əsas məna-məzmun daşıyıcısına çevirən rəssam onun fonunda cərəyan edənlərin təsirliliyinə nail ola bilib. Şuşa qalasında

yaşananları özündə əks etdirən fotoşəkildən arxa fon üçün yaradılmış dekorasiya Qarabağ təbiətinin möhtəşəmliyini canlandırır.

Böyük Vətən Müharibəsinin başa çatmasından sonrakı dövr digər yaradıcı kollektivlər kimi "Rus draması" kollektivi qarşısında da sovet adamının qürurdoğurucu obrazının yaradılması vəzifəsi ilə xarakterikdir. Bu isə sovet adamlarının gündəlik həyatını əks etdirən tərtibatın seçilməsini şərtləndirirdi. Müəllif fikirlərini səhnədə gerçəkləşdirən rejissorlar və rəssamlar teatrallaşmış əhvalatların daha da inandırıcı olmasına çalışırdılar. Bu mənada belə tamaşalara bədii yozum verən rejissorlardan A.Qripiç, Y.Yaroslavski, B.Velikanov, K.Myakişev, P.Yudin, K.Stepanov-Kolosov və M.Haşımovla yanaşı, bu əsərlərin əksəriyyətinin bədii həllini gerçəkləşdirən rəssam S.Yefimenkonun fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

Sergey Yefimenkonun 1950-1951-ci illər mövsümündə tamaşaya qoyulan P.Bomarşenin "Fiqaronun toyu" əsərinə verdiyi tərtibat o dövrün səhnə tərtibatını parlaq şəkildə əks etdirir. Rejissor Y.Yaroslavskinin verdiyi yozuma müvafiq bədii həll axtaran rəssam əsərin ümumi ruhuna uyğun səhnəqrafiya işləri ilə təmtərağı göstərməyə nail olub. Bu gün C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin ekspozisiyasında göstərilən dekorasiya eskizində həmin təntənəli ovqatı duymaq mümkündür. Belə ki, burada bütün səhnəni əhatə edən məkan açıq hava altında və onunla əlaqəli görüntüyə gətirilib. İnteryerin dəbdəbəli görünməsini də elə onun ön planında incə zövqlə işlənmiş məişət əşyalarının, onların arxasından ucalan şəbəkəli arakəsmələrin və arxadakı təbiət motivinin bir araya gətirilməsi şərtləndirmişdir. Rəssam tərəfindən detalların zövqlə seçilməsi və səhnə boyu məntiqlə səpələnməsi ümumi realist-gerçəkçi görüntüyə duyulası bir bədii yüngüllük bəxş etmişdir. Bütün tərtibatda dövr və insanlar barədə informasiya duyulur. Sergey Yefimenko bu işində də qarşısına qoyulan vəzifənin öhdəsindən layiqincə gələ bilmişdir.

Sergey Yefimenkonun teatr dekorasiyalarında dəzgah rəngkarlığından gələn bədii vasitələrə müraciət etməsi onun səhnəqrafiya işlərinə özünəməxsusluq bəxş etmişdir.

Mütəxəssislər ötən əsrin 60-70-ci illərini teatrın çiçəklənmə dövrü hesab etməkdə yanılmırlar. Bu illərdə Rus dram teatrında da yeni rejissor və rəssamların yaradıcılıq prosesinə cəlb olunması burada gerçəkləşən işlərin rəngarəngliyinin aparılması istəyindən xəbər verirdi. G.Güləhmədova-Martınova, Ə.Behbudov, C.Səlimova, E.Əliyev və digər rejissorların, Toğrul Nərimanbəyov, Yuri Toropov, Qriqori Belov, Elçin

Məmmədov, Fyodor Filştinski, Nazim Bəykişiyev, Tahir Tahirov və b. rəssamların tamaşalara verdikləri bədii yozumlar maraqla qarşılanırdı.

80-ci illərdə teatrın səhnəqrafiya işində iştirak edən daha bir-neçə rəssam olmuşdur. Bunlara Vladimir Serebrovski, Nikolay Aqafonov və b. aid etmək olar. Onların dünya və yerli müəlliflərin müxtəlif mövzulu əsərlərinə verdikləri bədii tərtibatda rejissor düşüncələrinin əyaniləşməsinə, aktyor oyununun təsirliliyinin artmasına kömək edən bədii-estetik məziyyətlər kifayət qədərdir.

1940-1980-ci illərdə S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının bədii tərtibatında ənənələrin formalaşması ümumilikdə aşağıdakı istiqamətləri əhatə edir: dünya və yerli müəlliflərin əsərlərinə verilən tərtibatlarda rejissor yozumundan qaynaqlanan ifadə rəngarəngliyinin hakimliyi; tamaşaların səhnəqrafiya həllində əsasən realizm ənənələrinin estetikasına üstünlük verilməsi; həm dekorasiyaların bədii həllində, həm də səhnənin tərtibatında bədii lakoniklik və detal yığcamlığının nəzərə çarpması; dekorasiyaların bədii həllinin tez-tez düşündürücü mahiyyət daşıyıcılığına üstünlük verilməsi tendensiyası; rəng və detalın rəmzi-fəlsəfi yük daşıyıcılığı. Bütün bunlar da göstərir ki, 1940-1980-ci illərdə S.Vurğun adına Azərbaycan Dövlət

Rus Dram Teatrının səhnəsində oynanılan tamaşaların bədii tərtibatında ənənə və müasirlik məsələsinə xüsusi diqqət yetirilmiş, səhnəqrafiya sahəsində əldə olunan bədii-texniki vasitələrdən tamaşaların təsirliliyinin artırılmasında məntiqi şəkildə istifadə olunmuşdur.

Fəslin ikinci yarımfəsli “**Müstəqillik dövrü tamaşalarının bədii tərtibatında yeni təmayüllər**” adlanır. Müstəqillik dövrü digər yaradıcı kollektivlər kimi S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı üçün də incəsənətin ənənəvi ideologiyaya bağlılıqdan azad olması ilə xarakterikdir.

C.Səlimova, E.Aslanov, D.Liburkin, B.Erin, İ.Tağızadə, O.Səfərəliyev və digər rejissorların bədii yozumu, rəssamlardan Elçin Məmmədov, Qriqori Ellinskiy,Olqa Zemtsova, Boris Serebrovskiy, Qriqori Sotnikov, Boris Krasnov, Nikolay Aqafonov və Vladimir Klotsun bədii tərtibatlarındakı özünəməxsusluq teatrın hələ 80-ci illərin sonlarında “yenidənqurma” mərhələsində göstərdiyi müxtəlif mövzulu tamaşaların ümumi ruhuna yeni meyllərin gəlməsindən xəbər verirdi.

Müstəqillik dövründə isə Ş.Səfərov, A.Şarovski, B.Lukinski, R.Əliyev, A.Falkoviç, E.Mirabdullayev və digər rejissorların tamaşaların səhnələşdirilməsinə cəlb edilmələri, əsərlərin səhnəqrafiya həllinə daha gənc – Altay Nəsirli, Arif Əbdürrəhmanov, İrina Matveyeva, Nazim

Bəykişiyev, Aleksandr Fyodorov, Musa Tahirov, Aydın Əliyev və b. kimi rəssamların özünəməxsus bədii həll formaları nümayiş etdirmələrinə imkan yaratdı. Öz yaradıcılıqlarında ənənə ilə müasirliyi birləşdirməyi bacaran bu rəssamların təqdim etdikləri səhnəqrafiya nümunələri həm də müasir tamaşaçının arzusunda olduğu bədii şərhlər idi.

Yeni yaradıcı qüvvələrlə həyata keçirilən bədii tərtibat işlərində yeni təmayüllərin təzahürü də təbii idi. Belə ki, incəsənətin ideologiyasızlıq şəraitində baş tutan inkişafında əvvəlki səhnə estetikasına dəyişilməz meyar kimi baxılması mümkünsüz idi. Bütünlükdə demək lazımdır ki, rəssamların dünya teatr məkanında baş verənlərdən ən müxtəlif vasitələrlə tanış olmağa imkan tapmaları səhnəqrafiyanı müasir tələblər əsasında inkişaf etdirməyə məcbur edirdi. Müstəqillik illərində teatr tamaşalarına yeni yaradıcı qüvvələrin cəlb olunması forma-biçim və məna-məzmun baxımından müasir görünən, rejissor yozumunu tamamlamaqla, tamaşaçısını da duyğulandıran və düşündürən səhnəqrafiya nümunələrinin yaranmasını şərtləndirmişdi.

“Rus draması”nın səhnəsində tamaşaya qoyulan bir çox əsərlər həm də səhnəqrafiya həllinin orijinallığına görə tarixə qovuşub. Bu mənada Nazim Bəykişiyevin “İblis” (H.Cavid), Arif Əbdürrəhmanovun “Təhminə və Zaur” (Anar), Aleksandr Fyodorovun “Mənim sevgilim dəlidir” (Elçin) və s. tamaşalarının adlarını çəkmək olar.

Müstəqillik dövründə müfəssəl-əhatəli, lakonik və yığcam bədii vasitələrdən təşkil olunduğunu sərgiləyən bir çox tamaşaların dekorasiyaları da rejissor düşüncələrinə əyanilik gətirən nümunələr kimi maraq doğurur. Müstəqillik illərində müşahidə olunan yeni tendensiyaların məna-məzmun tutumunda onların ayrıca və sintez şəklində tətbiqinə də rast gəlmək mümkündür. Bunların bu və ya digər formada təqdimatı isə çox vaxt tamaşanın bədii şərhindən asılı olur, rejissor yozumunun xarakterindən qaynaqlanır.

Rəssamların müasir texnoloji vasitələrdən səhnənin tərtibatında istifadə etmələri də müstəqillik dövrünün səhnəqrafiyası üçün yeni olmaqla, həm də bütünlükdə, dramaturji materialın rejissor baxışı ilə əyaniləşən bədii-estetik tutumuna müsbət təsir göstərə biləcək amil kimi qəbul olunmaqdadır. Obrazlar üçün nəzərdə tutulmuş geyimlərin forma-biçim və rəng həllində tamaşaya verilən quruluşun ideyası ilə səsləşən bədii-estetik məqamların vacibliyi önəmlidir. Belə ki, səhnəqrafiyanın quruluş konsepsiyası ilə uzlaşması sayəsində uğurlu nəticə əldə olunur. Əldə olunan bütövlüyün tamaşanın bədiliyinin əldə olunması kontekstində gerçəkləşməsi məhz nəzərdə tutulan yaradıcı niyyətə çatmağa kömək

göstərir. Bütövlüyün əldə olunması isə hər bir səhnə əsəri barədə dilə gətirilən ən qiymətli dəyərləndirmədir.

Teatrın müstəqillik illərinə aid fəaliyyətinin özünəməxsus xüsusiyyətlərindən biri də kollektivin tez-tez yerli əsərlərə müraciət etməsidir.

Ümumən teatrın müstəqillik dövrü repertuarının müstəqil seçim əsasında formalaşması bu dövrdə səhnəyə qoyulmuş tamaşaların bədii tərtibatındakı yeni təmayüllərə mühüm təsir göstərmişdir. Tərtibat işlərinə yeni və gənc kadrların cəlb olunması dekorasiya və geyim eskizlərinin ümumi tutumunda müsbət rol oynamışdır. Repertuar və rejissor yozumundakı yaradıcı sərbəstlik tamaşanın bədii tərtibatında özünü göstərmiş və yeni təmayüllərin yaranmasını şərtləndirmişdir. Səhnəqrafiyada müasir texniki vasitələrdən istifadənin tamaşanın ümumi uğurunun əldə olunmasına təsiri böyük olmuşdur. Bədii tərtibat işlərində ifadə vasitələrinin məna-məzmun tutumunun çeşidli estetik dəyərlərlə yüklənməsi, müstəqillik illərinin tamaşalarında müəllif fikrinin bədii yozumunda rejissor-rəssam birliyinin uğurla alınması bu dövrün səciyyəvi xüsusiyyətlərindəndir.

**Nəticədə Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında teatr-dekorasiya sənəti mövzusunun** təhlili yekunlaşdırılır və tədqiqatın əsas nəticələri göstərilir:

-"Rus draması"nın sələfi olan Dövlət Azad Tənqid-Təbliğ Teatrının sosialist inqilabi ideyalarının təbliği məqsədilə yaradılması baş vermişdir;

-Yeni teatrın ətrafında müəyyən ideyaları gerçəkləşdirə biləcək yaradıcı heyətin (rejissor, aktyor, rəssam və s.) formalaşması reallaşmışdır;

-Kollektivin öz ətrafına tamaşaçı toplaya biləcək repertuarının müəyyənləşməsi gerçəkləşmişdir;

-Teatrın 20-ci, 30-cu illər səhnəqrafiyasında daha çox SSRİ-nin mərkəzi teatrlarında müşahidə olunan tərtibat estetikasından istifadə olunmuşdur;

-Tamaşaların səhnəqrafiya həllinə dəvət olunmuş rəssamların səhnə tərtibatlarında konstruktivizmin bədii prinsiplərinə geniş yer ayrılması baş vermişdir;

-Müşahidə olunan nisbi "solçu"luğun tədricən aradan qaldırılmasının Azərbaycan səhnəqrafiya ənənələrinə tapınma kontekstində həllinə səy göstərilmişdir;

-Teatr tərtibatı sahəsində ixtisaslı yerli kadrların yetişməsi respublikadakı əksər teatrlar kimi "Rus draması"nın səhnəqrafiyasında da

realizm ənənələrinə tapınan səhnəqrafiya nümunələrinin yaranmasını şərtləndirmişdir;

-İyirminci yüzilliyin ikinci yarısında tərtibat sahəsində yeni və yaddaqalan əsərlərin yaranması beynəlxalq teatr məkanında müşahidə olunan müasir və mütərəqqi tendensiyalardan yaradıcılıqla istifadə sayəsində baş vermişdir;

-Dünya və yerli müəlliflərin əsərlərinə verilən tərtibatlarda dramaturji materialdan və rejissor yozumundan qaynaqlanan ifadə rəngarəngliyi hakim olmuşdur;

-Tamaşaların səhnəqrafiya həllində realizm ənənələrinin improvizə potensialının tərtibatlarının düşündürücü bədii qaynağa çevrilməsinə yönəldilməsi baş vermişdir;

-Müstəqillik dövrü tamaşalarının səhnəqrafiyasında yeni bədii-texniki vasitələrin tətbiqi reallaşmışdır;

-Dekorasiyaların bədii həllində, həm də səhnənin tərtibatında bədii lakoniklikliyə və detal yığcamlığına tapınma müşahidə olunmuşdur;

-Son bir qərinənin səhnəqrafiyasında rəng və detalın rəmzi-fəlsəfi yük daşıyıcılığına üstünlük verilməsi aparıcı olmuşdur.

**Dissertasiyanın əsas məzmun və müddəaları dissertantın aşağıdakı məqalələrində əksini tapmışdır:**


1.Театральные художники в истории Государственного Русского Драматического Театра имени С.Вургуна (1920-1930)/ Научные исследования в сфере гуманитарных наук: Открытия XXI века-международной научно-практической конфренции,Пятигорск, 4-5 февраля 2016, с.107-110.

2. Azərbaycan səhnə tərtibatı ənənələrinin yaranması tarixinə baxış // Bakı Avrasiya Universiteti Sivilizasiya, Bakı 2017, cild 6, s.201-205.

3. Rəssam Rüstəm Mustafayevin S.Vurğun adına Dövlət Rus Dram Teatrının tamaşalarına verdiyi tərtibat işləri //Təsviri və dekorativ –təbiqi sənət məsələləri,Azərbaycan Xalça muzeyi, Baki, 2017, №20, s.51-53.

4.Зарождение традиций художественного оформления Азербайджанского Государственного Русского Драматического Театра имени Самеда Вургуна // Papadiqmata Poznani, № 1, Пенза, 2018, s.76-80.

5.Rəssam Elçin Məmmədovun Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında yaratdığı tərtibat işləri // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, İSSN-8482 Axtarışlar, cild 8, Naxçıvan, 2018, s.137-140

6. Səməd Vurğun adına Dövlət Rus Dram Teatrının tərtibatçı rəssamı Sergey Yefimenkonun fəaliyyəti (1927-1940) // Bakı Avrasiya Universiteti Sivilizasiya, Bakı, 2018, cild 7, s.329-333.

7. Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında dekorasiyaların yaradılması tarixindən (1920-1930) // Təsviri və dekorativ –təbiqi sənət məsələləri, Azərbaycan Xalça muzeyi, Baki,2018 (çapda)

**Кямаля Амир гызы Исламова**

## Театрально-декорационное искусство Русского Драматического Театра имени Самеда Вургуна

## Резюме

Исследовательская работа посвящена театрально-декорационному искусству в Азербайджанском Государственном Русском Драматическом театре имени Самеда Вургуна.

Её цель отслеживание истории декоративного искусства через образцы декораций в этом театре. Определить их место в азербайджанском изобразительном искусстве.

Диссертация состоит из введения, двух глав, четырёх подглав, заключения и списка литературы и иллюстраций.

В введение охватывается актуальность темы, степень разработанности проблемы, цели и задачи исследования, научная новизна, методология и границы исследования, также практическая значимость.

I глава называется «Создание традиций сценического оформления в Азербайджанском Государственном Русском Драматическом Театре имени С.Вургуна». В этой главе рассматривается театрально-оформительская эстетика в общем контексте создания азербайджанской сценографии. Уделяется внимание истории создания декораций в 1920-1930 годах в этом театре. Определены основные этапы формирования и развития декорационного искусства в театре. Истолковывается художественно-эстетическое бремя основных тенденций развития.

II глава называется «Формирование традиций художественного оформления в Азербайджанском Государственном Русском Драматическом Театре имени С.Вургуна». Здесь рассказывается об основных направлениях развития художественного оформления в 1940-1980 годах. Изучено творчество ведущих художников театра. Была интерпретирована эстетическая ценность образцов творческого оформления для различных спектаклей со стороны выдающихся азербайджанских художников. Оценены новые и современные тенденции в творчестве художников, которые в разное время сотрудничали с театром. Кроме того, отслеживаются особенности декораций периода независимости. Были рассмотрены творческие поиски и художественные особенности театральных постановок, имевших место в 1920 - 2010 годах. Уделяется внимание, месту, которое занимает этот театр с его почти полувековой творческой деятельностью, в азербайджанском театральном искусстве.

Результаты, полученные в ходе исследования, были обобщены в разделе заключения.

В конце указан список используемых источников.

Список иллюстраций, использованных в исследовании, также был включен в диссертацию.

**Kamala Amir Islamova**

# Scenography of the Azerbaijan State Russian Drama Theater named after Samad Vurgun

## Summary

The dissertation is devoted to the scenography in the Azerbaijan State Russian Drama Theater named after Samad Vurgun.

The dissertation's goal is to track the history of decorative art through the samples of scenery in this theater and to determine their place in the Azerbaijani fine arts.

The dissertation consists of an introduction, two chapters, four sub-chapters, a conclusion and a list of references and illustrations. The introduction covers the relevance of the topic, the level of elaboration, the purpose and obligations, the methodology, scope of the research, scientific novelty, and practical significance.

The first chapter is called "Creation of the traditions of stage design in the Azerbaijan State Russian Drama Theater named after S.Vurgun". It considers the aesthetics of the theater design is viewed in the general context of the creation of Azerbaijani scenography. Much attention is given to the history of the creation of the scenery in this theater in 1920-1930. It determines the main stages of the formation and development of the theater scenery. The chapter interprets the artistic and aesthetic burden of the main tendencies of the development.

The second chapter is called "Formation of traditions of artistic design in the Azerbaijan State Russian Drama Theater named after S.Vurgun". It tells about the main directions of the development of artistic design in 1940-1980. It studies the work of the leading artists of the theater. It interprets the aesthetic value of the samples of creative design for various performances by prominent Azerbaijani artists.

The chapter evaluates new and modern tendencies in the creative activity of artists, who collaborated with the theater at different times. In addition, it tracks the features of the decorations of the independence period. The chapter reviews the creative searches and artistic features of the theatrical performances that took place in 1920 - 2010. It considers the half-century work of the theater and emphasises its role in the Azerbaijani Dramatic Art.

The results obtained during the study were summarized in the conclusion. The bibliography and illustrations were also included at the end of the dissertation.

Format 60x84 $^{1}/_{16}$
AMEA-nın mətbəəsində çap olunub.
Sayı: 100 nüsxə.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**КЯМАЛЯ АМИР гызы ИСЛАМОВА**

# ТЕАТРАЛЬНО-ДЕКОРАЦИОННОЕ ИСКУССТВО РУССКОГО ДРАМАТИЧЕСКОГО ТЕАТРА имени САМЕДА ВУРГУНА

**Специальность: 6215.01 – Изобразительное искусство**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени доктора философии в области искусствоведения

**БАКУ - 2018**